# Göyçənin türk ruhlu, layiqli mənəviyyat sahibi

**Göyçə mahalında hörmət və ehtiramla qarşılanan, istedadı, nümunəvi davranışı ilə insanların diqqətini çəkən ziyalılar hər zaman iftixarla yad olunur. O insanlar haqqında yazmaq bizim mənəvi borcumuzdur. Göyçə mahalında təhsilli və mədəni nəsillərin yetişdirilməsində onların zəhməti unudulmur. Göyçə mahalında insanların hörmət etdikləri görkəmli ziyalılardan biri də Nazim Veyisovdur. Nazim müəllim ensiklopedik biliyə malikdir, hər zaman öz ahəngini, sirayətedici müdrikliyini qoruyub saxlayır…**

O, Qərbi Azərbaycandan olan və sayılıb-seçilən ziyalılardan biri kimi tanınır. Bu keyfiyyətlər Nazim Veysovun təcrübəsi, qətiyyəti sayəsində qazanılıb. Yüksək intellektə malikdir. Dağdan ağır, qeyrətli, hikmətli, Göyçəni dünyaya tanıdan Vətən oğullarından biridir.

Nazim Veysov 10 avqust 1950-ci ildə Ulu Göyçədə - Basarkeçərin Böyük Məzrə kəndində dünyaya göz açmışdır. Uşaqlıq illəri "Sarıyer" yaylağında, "Abbasbəy" dağının çiçəkli yamaclarında keçmiş, hərdənbir məhəllə uşaqları ilə Göyçə gölünün nəğməli sahillərinə, həmçinin Kəlbəcərin İstisu sanatoriyasına baş çəkmiş, aşıqların söylədikləri dastanlara maraqla qulaq asmış, bir sözlə, gənc yaşlarından könlünü telli saza vermişdir.

Məktəbin direktoru, əməkdar müəllim Mahmud Hacıyev dərs ilinin başa çatması münasibətilə keçirilən toplantıda istedadlı şagirdlər sırasında Nazim Veysovun da adını çəkmiş, ona tərifnamə təqdim etmiş, əmin olduğunu bildirmişdir ki, Nazim Veysov gələcəkdə müəllimlərinin etimadını ləyaqətlə doğruldacaq.

Orta təhsilini uğurla başa çatdırdıqdan sonra qəlbinin hökmü ilə Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun mexanikləşdirmə fakültəsinə daxil olmuş, ali təhsilini müvəffəqiyyətlə bitirərək əmək fəaliyyətinə başlamış, 1974-cü ilin noyabrından 1983-cü ilin avqustuna qədər Göygöl rayonunun heyvandarlıq sovxozunda baş mühəndis, 1983-cü il oktyabr ayından 1976-cı ilin avqust ayına qədər Göygöl rayonunun heyvandarlıq sovxozunda partiya komitəsinin katibi vəzifələrində çalışmışdır.

Zəngin iş təcrübəsi toplayan N.Veysov 1987-ci ilin iyul ayından 1990-cı ilin fevral ayına qədər Azərbaycan KP Göygöl rayon komitəsində təlimatçı işləmişdir. Həmin vaxtlar Qərbi Azərbaycandan qovulmuş soydaşlarımızın çoxu Gəncədə və Göygöldə məskunlaşmış, insanlar ağır vəziyyətlə üzləşdilər. Erməni şovinistlərinin bu qəddarlığı, azərbaycanlıların doğma ata-baba yurdundan qovulması Nazim Veysovu çox narahat edirdi. O, Göygöldə məskunlaşan Qərbi azərbaycanlılarla mütəmadi görüşlər keçirir, onların həyat şəraitinin yaxşılaşmasına maksimum səy göstərirdi.

N.Veysov 1992-ci ilin mart ayından 1999-cu ilin aprelinədək Göygöl rayon Kənd Kimya Birliyinin sədri olmuş, qarşıya qoyulan işlərin öhdəsindən bacarıqla gəlmiş, həmçinin ictimai işlərdə fərqlənmişdir.

1993-cü ildən Yeni Azərbaycan Partiyasının üzvü olan Nazim Veysov həmin il Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirmişdi. İki dəfə Yeni Azərbaycan Partiyası Göygöl rayon təşkilatının sədri seçilmişdi.

YAP-ın yığıncaqlarının birində Nazim Veysovun çıxışı iştirakçılar tərəfindən razılıqla qarşılandı. O bildirdi ki, "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin Ermənistana birləşdirilməsi üçün erməni mafiyasının qarşısında duran Heydər Əliyevin keçmiş SSRİ-də ən mühüm vəzifələrdən birini tutması idi. Qarabağ problemini həll etmək üçün birinci növbədə Heydər Əliyevi işdən götürməyi planlaşdırırdılar və satqın, mənəviyyatca erməni olan M.S.Qorbaçovun havadarlığı ilə buna nail oldular. Heydər Əliyev MK-nın aprel plenumunda çıxışında Qorbaçov hökumətinin daxili, xarici və milli münasibətlər sahəsində buraxdığı səhvləri əsaslı faktlar əsasında sərt tənqid etdi. Çıxışının sonunda qeyd etdi ki, vaxt gələcək, Qorbaçov və onun komandası buraxdığı səhvlərə görə tarix qarşısında cavab verəcəkdir. Tarix Heydər Əliyevin uzaqgörənliyini təsdiq etdi.

Nazim Veysov YAP Göygöl rayon təşkilatının sədri işləyərkən partiya üzvlərinin avanqard rolunun təmin olunmasına maksimum səy göstərmişdi. O, 1999-cu ilin aprel ayından oktyabr ayınadək Göygöl Rayon İcra Hakimiyyəti başçısının müavini, həmin ilin oktyabrından 2003-cü ilin mart ayınadək Göygöl Rayon İcra Hakimiyyəti başçısının birinci müavini vəzifəsində çalışmış, sosial-iqtisadi vəzifələrin həyata keçirilməsində səy və bacarığını əsirgəməmişdir.

Fədakar vətən oğlu, qeyrətli vətəndaş, yüksək mənəvi dəyərlərin daşıyıcısı olan Nazim



Veysov ayrı-ayrı illərdə Gədəbəy və Şəmkir rayon icra hakimiyyətinin başçısı vəzifələrində çalışmış, sənayenin inkişafında məqsədyönlü iş aparmış, abadlıq, quruculuq işləri genişləndirilmiş, səhiyyə və təhsil sahəsində islahatın aparılması ön plana çəkilmişdir.

Müdriklik zirvəsinə ucalan Nazim Veysov 2010-cu ildə Prezident İlham Əliyevin sərəncamı ilə III dərəcəli "Vətənə xidmətə görə" ordeninə layiq görülmüşdür.

Nazim Veysovun oğlu Eminlə söhbətimizdə o, qəlbindən süzülüb gələn sözləri dedi:
- Bu gün atam dağlar qoynunda, romantik mənzərəli Göygöldə yaşayır, özü demişkən, əlini uzatsa Göyçəyə, Böyük Məzrəyə çatar, axı, Göyçə Göygölə çox yaxındır. Atam 2022-ci il dekabrın 24-də Prezident İlham Əliyevin bir qrup Qərbi Azərbaycan ziyalıları ilə görüşündən sonra əmin oldu ki, çox tezliklə qəribsəmiş yurd yerlərinə qayıdacaqlar. Axşam-sabah atam Göyçə ilə bağlı nəvələrinə çox maraqlı xatirələr danışır…

İnanırıq ki, Nazim müəllim ailəlikcə günlərin birində əlini uzatdığı dumanlı dağların qonağı olacaq.

**Qədir ASLAN,**
**Əməkdar jurnalist.**